Kaspi 2020.- 25 iyul.-S.11.

Şəlalə Şəfəq

## QAR ÇİÇƏYİM

Qışıma yaz gətirən mənim qar çiçəyimsən,
Gələn xoş günlərimdən müjdəmi gətirmisən?
Bəlkə, elə səninlə sovuşacaq ayazım,
Amma bilmirəm niyə, özün boynu büküksən?

Yoxsa təsəlli üçün əllərini açmısan,
Özü hüzur dilənən bu bədbəxt dilənçiyə?
Dərdim tək darıxmasın, dərdin qoy dərdim üstə,
Sənin olsun yarısı, qəlbi bölüm ikiyə.

Bəlkə, yay buludu tək olacaqsan davamsız,
Bir içim udduğum su, qış günütək vəfasız.
Bilməm nə gözləyirəm bu gizli gəlişindən?
Axtardığın hüzüru özün məndə gəzərkən...

Bəlkə bir-birimizə olacağıq təsəlli,
Sən olarsan həmdəmim, mən dərdlərindən dəli...
Razısansa, qarşıla, zəngə uzanır əlim,
Xoş gəlmisən ömrümə, salam, a qar çiçəyim.

## YORULDUM

Sənsizliyin başına özü boyda daş düşüb,
Bəxtim vaxtsız qocalıb, taleyinə qış düşüb,
Gözümə bulud dolub, yanağıma yaş düşüb,
Yaşın ağırlığından kirpiklərim yumulub.

Səsini duymaq üçün qəlbim ölür acından,
Yol aldım sənə tərəf, görmək ehtiyacından.
Mənə gəlmək istəsən, tut yolun bir ucundan,
Vüsala körpü salaq, yolum yaman yorulub.

Heç harda tapmayacaq könlün rahatlığını,
Həsrətinə borcluyam saçlarımın ağını.
Əritdin gilə-gilə ürəyimin yağını,
Yuxum ərşə çəkilib, gözlərimə qor dolub.

Təkliyinlə içini didib-dağıdacaqsan,
Çarə gəzirəm səndə, məndən nə umacaqsan?
Dərdlərinlə dərdimə dərmanmı olacaqsan?
Dərdim dərdini görüb öz dərdini unudub.

## QAYIT

Hardasan, gözümü yolda qoyanım?
Qəlbimdə məkanı viran qalanım.
Bir zaman hamıdan doğma olanım,
Dönmə uzağıma, yadıma, qayıt!

Varmı kölgən kimi ardınca düşən,
Yayında titrəyən, qışında bişən?
Qayğın məndə qalıb, bax, üşüyərsən,
Qızın alovuma, oduma, qayıt!

Gözümdən süzülən yaşa rəhm elə,
Ürəyin dönməsin daşa, rəhm elə,
Ömrü birgə vuraq başa, rəhm elə,
Tapın qəlbimdəki adına, qayıt!

Sən olan dünyama tənhalıq yaddır,
Səninlə ürəyim həmişə şaddır.
Sevgini yaşadan qoşa qanaddır,
Zəhər qatma şirin dadıma, qayıt.

Sənsiz misralardan sözün boylanır,
Güzgüyə baxıram, gözün boylanır.
Getdiyin yollardan izin boylanır,
Düşməyək bu eşqin badına, qayıt.

Mən yenə oduna yanan həmənəm,
Sığalına hısrət saçımda dənəm.
Açıq qalar gözüm, sənsiz ölmərəm,
Qıyma o sevdiyin qadına, qayıt!

## YUXUMU NECƏ YOZUM

Saçımı darayır əllərin yenə,
Baxışın gözümdə dolanır, gəzir.
Üzümü oxşayır tellərin yenə,
Kirpiyimdən düşür həsrətin bir-bir.

Yatıram, yuxuma ərklə gələsən,
Yuxu mənzilimin kilidi yox ki.
Rahat ol, gecəmin ev yiyəsisən,
Yuxumun siniri, sərhəddi yox ki.

Yuxumdan getməyə qoymayım deyə,
Mən qəfəs edərdim kirpiklərimi.
Sənli yuxulardan doymuram deyə,
Gecəyə bükərdim səhərlərimi.

Bu gecə yuxuma gəlmişdin yenə,
Söylədin bu gəliş son gəlişindi.
Biləndə ayrılıb gedəcəyini,
Gözümdə bir damla yaş gilələndi.

Başqa ad gəzirdi dodaqlarında,
Onun sevgisini unutmamışdın.
Vəfasız çıxmışdı yuxuların da,
Sevgimin dəyərin anlamamışdın.

Yuxum həmən gündən gəlmir gözümə,
Bütün varlığımı sardı bu qorxu.
Təsəlli verirəm özüm-özümə,
Adətən tərsinə yozular yuxu.

## YENƏ

Yenə qırdım qəlbini,
Küsdürdü səni dilim.
Allah öldürsün məni,
Səni necə dindirim?

Yenə də söz salmışdım,
Ötüb-keçənlərindən.
Dəli, keçmişinə də,
Səni qısqanıram mən.

Yenə əsib-coşma ki,
Dil çaşıb düzün deyər.
"Pişik öz balasını,
İstədiyindən yeyər."

Yenə hicran tətikdə,
Nişan alıb ruhumu.
Onsuz da bir yaram var,
Heç insafı yoxdumu?

Yenə gözüm yol çəkir,
Gəlişinə tələsir.
Barışacaq bilirəm,
Onun qəlbi incədir.

Yenə qəlbim darıxır,
Gözüm yoluna baxır.
Tez gəl, bitsin bu həsrət,
Ayrılığın çox sıxır.

Yenə hay-haraydadı,
Görən indi hardadı?
Bilirmi peşman qəlbim
Onsuz intizardadı?

Yenə zaman keçəcək,
Döyəcəksən qapımı.
Baxışlarım güləcək,
Pıçıldasan adımı.

Yenə, yenə, beləcə
Küsüb birləşəcəyik.
Misal var çəkişməsək,
Necə bərkişəcəyik?